**Sosial Ədalət Mərkəzi ATƏT-in beynəlxalq mükafatının 2022-ci ilin qalibidir!**

Bu gün bizim üçün çox önəmli bir gündür! Sosial Ədalət Mərkəzi ölkədə qeyri dominant etnik qrupları dəstəkləmək yönündə ortaya qoyduğu səylərə görə ATƏT-in Milli Azlıqlar üzrə Ali Komissarı ofisinin nüfuzlu qlobal mükafatı olan Max van der Stoel-in 2022-ci il qalibi olub.

2001-ci ildə təsis edilmiş bu mükafat, insan hüquqları sahəsində öz ölkələrində etnik/milli azlıqlar istiqamətində xüsusi işlərinə və nailiyyətlərinə görə təşkilatlara və şəxslərə verilən özəl mükafatlardan biridir.

"Sosial Ədalət Mərkəzi ölkədəki bütün sosial qrupların bərabərliyi üçün yorulmadan mübarizə aparır, məhz elə buna görə də münsiflər heyəti anonim səsvermə nəticəsində bu ilki mükafatı bu təşkilata layiq görüb", - ATƏT-in paylaşdığı press-relizddə bildirilir.

Mükafata görə ATƏT-in Milli Azlıqlar üzrə Ali Komissarlığına öz dərin minnətdarlığımızı bildiririk və həmçinin, İsveçrə səfirliyinin Gürcüstandakı nümayəndəliyinə xüsusi təşəkkür edirik. Bizim bu mükafata namizədliyimizi məhz onlar irəli sürüb.

Həmişə işimizin əsas başlanğıc nöqtəsi olan azadlıq inancı və bərabərlik uğrunda ortaya qoyduqları əməklərinə və inamlarına görə təşkilatımızın hər bir əməkdaşına təşəkkür edirik!

Gürcüstanda həmrəy, inklüziv və ədalətli cəmiyyət qurmaq yolunda həyata keçirdiyimiz hər bir iş, qazandığımız nailiyyətlər və qələbələr, qeyri-dominant etnik və dini qrupların özlərinin yorulmaz əməklərinə əsaslanır. İnanırıq ki, sistem tərəfindən həyata keçirilən ayrı-seçkiliyə son qoymaq və transformativ dəyişikliklərə nail olmaq üçün qeyri dominant qrupların daxilində aktizm, icma işləri və öztəşkilatlanma təcrübələri ilə məşğul olan hər kəs, bizimlə birlikdə bu mükafatın qalibidir.